# Regional Kampaniya
# Piyada Əleyhinə Minalardan Azad Cənubi Qafqaz

# Çağırış

## Mina qurbanları və onların icmaları ilə həmrəylik

Cənubi Qafqaz dünyada mina və digər partlamamış müharibə qalıqları ən çox çirklənmiş ərazilərdən biri olaraq qalır. Son üç onillikdə minaların və digər partlamamış hərbi sursatların birbaşa və ya dolayı yolla səbəb olduğu minlərlə, o cümlədən son bir ildəki yüzlərlə təlefatla yanaşı, bu çirklənmə regiondakı bütün icmalara, onların iqtisadi rifahına mənfi təsir göstərir, onları daim risk və təhlükə ilə qarşı-qarşıya qoyur.

2019 və 2021-ci illərdə "Piyada Əleyhinə Minalardan Azad Cənubi Qafqaz" regional kampaniyası bütün regionda uğurla həyata keçirilib. Hökumət rəsmiləri, minatəmizləmə təşkilatları və vətəndaş cəmiyyəti beynəlxalq ictimaiyyətin nümayəndələri ilə birlikdə minaların yaratdığı təhlükəni və onların məhv edilməsi üçün görülə biləcək işləri fəal müzakirə ediblər. Kampaniya regiondakı məktəblərə və icmalara minalardan azad Cənubi Qafqaz mesajını çatdırıb.

Bu il noyabrın 30-da "Mina qurbanları və digər partlamamış müharibə qalıqları və onların icmaları ilə həmrəylik günü" ilə start verəcək 2022-ci il Piyada Əleyhinə Minalardan Azad Cənubi Qafqaz Regional Kampaniyasının başlandığını elan etməkdən məmnunuq.

Keçmişdə olduğu kimi, kampaniya beş dildə, erməni, azərbaycan, gürcü, rus və ingilis dillərində aparılacaq. Noyabrın 30-da başlayacaq kampaniya 30 iyun 2023-cü il tarixinədək davam edəcək. Kampaniya çərçivəsində fəaliyyətlər partlamamış müharibə qalıqlarının ağır insani və iqtisadi fəsadları, eləcə də onların tez bir zamanda məhv edilməsinin zəruriliyi barədə məlumatlılığın artırılmasına yönəldiləcək. Minalardan zərər çəkmiş icmalar ilə həmrəylik göstərməklə biz onları əmin etmək istəyirik ki, onlar tək deyillər. Eyni zamanda xatırlayırıq ki, yüzlərlə minatəmizləyən bölgəni bu bəladan xilas etmək üçün yorulmadan çalışarkən həyatlarını hər gün riskə atırlar. Onların səylərini alqışlayır və dəyərli işlərinə görə onlara təşəkkür edirik. Torpaq bərpa olunduqca və lazımi istifadəyə qaytarıldıqca, onun iqtisadi istismarından ilk növbədə zərər çəkmiş icmaların faydalanacağına əmin olmaq lazımdır.

Nəhayət, biz Cənubi Qafqazda bütün minaların və digər partlamamış müharibə qalıqlarının məhv edilməsinə çalışan beynəlxalq ictimaiyyətin dəstəyini yüksək qiymətləndiririk. Bununla belə, minatəmizləməyə cəlb olunanların üzləşdiyi problemin miqyası elədir ki, qarşıda duran vəzifələrə adekvat cavab verə bilməsi üçün yerli minatəmizləyənlərə daha böyük səviyyəli dəstək tələb olunur. Bu dəstək tez və real fərq yarada biləcək səviyyədə olmalıdır.

**Biz Cənubi Qafqaz əhalisinə və beynəlxalq ictimaiyyətə çağırış edirik:**

**- Minaların və müharibənin digər partlayıcı qalıqlarının qurbanı olan fərdlər və icmalarla həmrəyliyik ifadə etmək üçün bizə qoşulun!**
**- Minatəmizləyicilərə təşəkkür etmək üçün bizə qoşulun!**
**- Bu onilliyin sonuna qədər və ya ondan bir az sonra Cənubi Qafqazı minalardan təmizləməyə çağırışda bizə qoşulun.**

**Piyada Əleyhinə Minalardan Azad Cənubi Qafqaz Regional Kampaniyası**
**20 noyabr 2022**

---

"Piyada Əleyhinə Minalardan Azad Cənubi Qafqaz" kampaniyası beynəlxalq tərəfdaşlarla birgə işləyən Ermənistan, Azərbaycan və Gürcüstandakı təşkilatların iştirakı ilə regional təşəbbüsdür. Kampaniya LINKS Europe tərəfindən əlaqələndirilir və Avropa İttifaqı tərəfindən dəstəklənir. Əlavə məlumat üçün Patrick Norén ilə əlaqə saxlayın: patrick@links-europe.eu.

**#LandminefreeSC22**